# L.BOLİNQBROK VƏ ONUN "TARİX FƏLSƏFƏSİ"

**B.X.ƏLİZADƏ**

*Məqalə fəlsəfi tədqiqatın mühüm və aktual problemlərindən birinə – tarixi prosesin fəlsəfi təhlilinə həsr olunmuşdur.*

*L.Bolinqbrok "Tarixin öyrənilməsi və faydası haqqında məktublar" əsərində tarixi prosesin, tarixi metodun təhlilini vermişdir. Müəllif məqalədə L.Bolinqbrokun tarixi həqiqət və onun mahiyyəti haqqında baxışlarını təhlil edir. Məqalədə Bolinqbrokun tarixi prosesin mərhələləri haqqında fikirlərinə də yer verilmişdir.*

İngilis maarifçiliyi bütövlükdə indinin özündə də bütün dolğunluğu, tarixi spesifikası və əhəmiyyətinə görə özünün tədqiqatçılarını gözləyir. Bu problemlər içərisində L.Bolinqbrokun İngiltərədə humanist tarixşünaslığın nəzəriyyəsiçisi olması mövzusu və onun tarix fəlsəfəsi haqqında baxışları mühüm yer tutur. L.Bolinqbrokun "Tarixin öyrənilməsi və faydası haqqında məktublar" əsəri XVIII əsrin birinci yarısı maarifçilik fəlsəfəsində tarixi və fəlsəfi fikrin görkəmli abidəsi hesab olunur.

Ənənəvi ilahiyyatın tənqidçisi, siyasi nəzəriyyəçi və moralistin "tarixi metod necə olmalıdır ki, fəaliyyət göstərən nəsillərə maksimum xeyir gətirə bilsin" kimi fikirlərə müraciət etməsi təbii idi.

"Tarixin **öyrənilməsi** və **faydası** haqqında məktublar" əsəri mütəfəkkir Bolinqbrokun təkcə ingilis yox, həm də bütövlükdə Avropa maarifçiliyində tarixi fikrinin unikal abidəsi hesab olunur. Əsərin unikallığı onunla bağlıdır ki, maarifçilikdə ənənəvi anlamda tarixin fəlsəfəsi və yaxud tarixi proses haqqında nəzəriyyə yox, insanın fəaliyyət sferası kimi, biliklər sistemi kimi tarix nəzəriyyəsi cəmlənmişdir.

"Tarixin faydası və öyrənilməsi haqqında məktublar" əsəri real şəxsə – gənc aristokrata, Lora Kornerberiyə ünvanlanmışdır. O da öz növbəsində Lord Bolinqbrokun tarixin faydası və öyrənilməsi metodu haqqında fikirlərini, rəyini bilmək istəyirdi. Başqaları kimi Bolinqbrok o dövrün görkəmli zəka sahibləri kimi, tarixi onun gözü qarşısında baş verən ideoloji və siyasi mübarizənin həlledici arqumenti kimi nəzərdən keçirir. Daha çox maraq doğuran məsələ Bolinqbrokun tarixi baxışlarının mənbələri haqqındadır. Şübhə yoxdur ki, bu sahədə Bolinqbrok dəqiq bildiyi antik ənənələrdən və mənbələrdən daha çox bəhrələnmişdir (Polibi, Siseron, Tasit). Bununla bərabər Bolinqbrok humanist fikrin görkəmli nümayəndələrinin (Lorenso Vall, Makyavelli Q.Biccardini) əsərlərindən yaradıcı və tənqidçi şəkildə istifadə etmişdir.

"Tarixin öyrənilməsi və faydası haqqında məktublar" əsərində tarixi metodun qoyuluşunun orijinallığına baxmayaraq Avropa humanizm ənənələrinin ruhunda yazılmışdır. Bolinqbrokun ""Məktubları..." bütün baxışlarından novator, akademik kanonları dağıdan, yəni problemlər irəli sürən, yeni qərarlar təklif edən və nəhayət, erüdist traktatlar stilini fəlsəfi söhbətlər stili ilə əvəz edən əsərdir. Hər halda bir şey şübhəsizdir ki, Bolinqbrokun "Məktubları..." əsəri tarixi metod probleminin qoyuluşunun bütün orijinallığına baxmayaraq biz tez bir zamanda bu əsərin Avropa humanizm ruhunda yazıldığına əmin ola bilirik.

Bolinqbrokun "Məktubları..." dövrünün ənənələrindən nə ilə fərqlənirdi ki, ona xüsusi yer təmin etmişdir? Bunlar dörd süjetdə təqdim oluna bilər. Onlardan birincisi ondan ibarətdir ki, insanların tarixə marağı nə ilə əlaqədardır? Müəyyən qrup insanlar üçün tarixi oxumaq əyləncədir, başqa bir qrup insanlar üçün isə özlərinin dayaz başlarını (qafalarını) kütləvi faktlarla, lətifələrlə doldurmaq üçün bir vasitədir. Və onlar əslində özlərinin dayaz təfəkkür və ağıllarını gizlətmək üçün bundan istifadə edirdilər. Üçüncülər üçün isə bu bir peşədir, tarixlə məşğul olan zaman özləri zərrə qədər zənginləşməsələr, daha müdrik olmasalar da onlar çox iş görürlər ki, başqalarının bu işlə məşğul olmalarını asanlaşdırsınlar və buna görə də minnətdarlıq qazanırlar.

Nəhayət, dördüncü qrup insanlar, Bolinqbroka görə böyük alimlərdir, tarixin xüsusi sistemini yaradanlardır (I Məktub səh.7-8).

Həyatda insanın tarixə münasibətindən başqa təbii bir şey ola bilməz; axı bu insanın özü-özünə olan məhəbbətidir. Aydındır ki, tarix haqqında fikir insan təbiətindən ayrılmazdır və o zaman meydana gəlir ki, insan özü ilə cəmiyyət-təbiət sisteminin üzvü elementi keyfiyyətində təqdim olunur. Bütün bu sistemlər zahiri görünüş, sehrlənmiş qəsrlərdən başqa bir şey deyildir.

Müəllifin məqsədi sehrbazlığı aradan qaldırmaq, bu qəsrlərin hansı əsasda ucaldılmasını nəzərdən keçirməkdir. Buna görə də insanın tarixə marağı – insan təbiətinin özünü dəyişməz göstərməsinin bir nümunəsidir, onun da hərəkətverici qüvvəsi bizə artıq məlumdur – bu insanın özünü sevməsidir, onun eqoizmidir. Başqa sözlə, tarixə maraq müvəqqəti hadisə, moda və ya əyləncə yox, onun həyat maraqlarının diqtə etdiyi insanın əbədi əxlaqi-etik tələbatıdır. (II məktub, səh.10-11).

Amma tarixə əxlaqi qanun kimi maraq bu qədər əzəlidirsə, bu o demək deyil ki, müxtəlif nəsillərin diqqətini cəlb edən tarixin problemləri dəyişməz hesab olunur. Bu məsələdə ilkin humanistlərdən fərqli olaraq Bolinqbrok tarixi mövqedə durmuşdur. Bolinqbrok yazırdı, bəziləri güman edir ki, indiki nəsilləri həyəcanlandıran şeylər bizim gələcək nəsilləri də narahat edəcəkdir. Problemin bu şəkildə qoyuluşu ilə Bolinqbrok razılaşmırdı, o belə hesab edirdi ki, hər bir nəsli həyəcanlandıran, maraqlandıran şeylər, faktlar onlara keçmişlə yox, indiki zaman vasitəsi ilə diqtə olunur. Düzdür, bu fikir Bolinqbrok tərəfindən inkişaf etdirilmir və yarımçıq şəkildə qırılır, amma onun əhəmiyyətini tarixilik baxımından qiymətləndirmək çox çətindir. Bütün bunlardan aydındır ki, Bolinqbrok tarixi maraqların daimi dəy-

işməsi haqqında fikrə çox yaxın olmuşdur. Məlumdur ki, hər bir dövrün, zamanın öz siyasi, iqtisadi, mənəvi maraqları mövcud olur. Klassik alman fəlsəfəsinin görkəmli filosofu G.V.Hegel "Tarix fəlsəfəsi" əsərində tarixi prosesin obyektiv əsaslandırılmasından bəhs edərkən maraqların tarixi prosesin əsasında durduğunu yazırdı (2, səh.23-25). Beləliklə, Bolinqbrok əslində ilk ingilis tarix elminin nəzəriyyəçisi idi ki, ənənəvi humanist tarixşünaslığın dərinliyində iki müxtəlif tarixin olduğunu açmış, onları "emosional" (poetik) və "rasionalist" tarixlər kimi müəyyən etmişdir. Bununla belə, rasionalist-mütəfəkkirdən gözlənildiyi kimi Bolinqbrok güman edirdi ki, tarixin öyrənilməsinin əsl mənası və onun əsil faydası rasionalist tarixşünaslıq yolu ilə əldə oluna bilər. Belə olan halda tarixin praktiki əhəmiyyəti nədədir? Onunla məşğul olmaq nəyə xidmət edir? Bu suallara cavab verməkdə yenilik ondan ibarətdir ki, onun fərdi yox, praktik əhəmiyyəti, sosial-iqtisadi təcrübə, onun cəmiyyət və insan həyatında rolu problemi ön plana çıxır. Sosial-tarixi təcrübə, nəsillərin tarixi epoxolar təcrübəsi təkcə ayrıca bir insanın həyatında yox, bütövlükdə cəmiyyətin taleyində yol göstərən xətdir – bu fikrə XVI əsr humanizmi yetişə bilmədi, yüksələ bilmədi. Təcrübə iki formada – müasir və tarixi formada mümkündür (11 məktub; səh.12-13).

Ayrıca bir insan üçün göstərilən formalardan birincisi – bu şəxsi təcrübədir, bütöv cəmiyyət üçün isə bu siyasi təcrübədir. Tarixi təcrübəyə gəldikdə isə üstünlüyü tamamilə şəxsi təcrübəyə verməklə Bolinqbrok bununla belə birincinin ikincidən asılılığını qeyd edir və bütün problemi sosial təcrübəyə yönəldir. Belə ki, Bolinqbrok belə bir sual qoyur: sübyekt müasir təcrübədən, yaxud keçmiş nəsillərin təcrübələrindən daha çox əxz edir? Bolinqbrokun bu suala cavabı XIX əsrin tarixizminə gedən yolda dönüş nöqtəsi kimi nəzərdən keçirilməlidir: tarixi-təcrübə mütləq zəruri idi, - bizi özümüzün təcrübəmizi anlamağa hazırlamaq üçün zəruri idi və bizi onu öyrənənə qədər müşayiət etməli idi. Bolinqbrok qeyd edir ki, hətta dahi belə heç vaxt bütün gücü ilə nəyə qadir olduğunu nümayiş etdirə bilməz, əgər özünün təcrübəsini başqa adamların və başqa dövrlərin təcrübəsi ilə zənginləşdirə bilməsə (II məktub, səh.13)

Beləliklə, Bolinqbrokun "Məktublar…"ında tarixi təcrübə haqqında traktovkası özünün dar praqmatikliyi ilə yox, həqiqi fəlsəfi genişliyi ilə fərqlənir. Ondan belə qənaət hasil olur ki, tarixi idrak-bütövlükdə insan idrakı üçün zəmin və bazisdir. Keçmişdən bəhs edərkən tarix əslində hər bir nəslin bu "gününü"n mahiyyətini açır, onun öz təcrübəsindən çıxış edərək öz zəmanəsinin mahiyyətini üzə çıxarır. Başqa sözlə, tarixi perspektivsiz insan bu günündən baş çıxara bilməz, bununla da özünün şəxsi təcrübəsinin dərslərindən ibrət götrürə bilməz və ondan istədiyi şəkildə istifadə edə bilməz. Buradan belə çıxır ki, tarixi öyrənmək insana ona görə zəruridir ki, o müstəqil həyata qədəm qoysun, tarix onu ağıllı həyata hazırlaya bilsin. İnsan gəncliyindəki böyük özünəarxayınçılığın əvəzini yetkin çağında çox baha qiymətə çətinliklə ödəməli olur. Beləliklə, tarix nümunələrində əsaslandırılmış fəlsəfədir. ("Fəlsəfə fikirlərdə mənimsənilən dövrdür") Tarix-sosial təcrübənin qiyməti olmayan xəzinəsidir. Burada qeyd etmək kifayət edər ki, Bolinqb-

rokun fikrincə tarix xüsusi məhdud peşəkar məqsədlər güdməməli, ümumbəşəri, ümumfəlsəfi problemləri, bəşəriyyətin ən mühüm maraqlarına toxunan vəzifələri, məsələləri həll etməlidir. Bu vəzifələr, məsələlər "Məktublarda" bütövlükdə Bolinqbrok tərəfindən humanizm ənənələri məcrasında konkretləşdirilir. (III məktub, səh.28-29)

Əgər tarixin öyrənilməsi bizi daha müdrik, vətəndaşlar kimi xeyirxah, yaxşı insanlar kimi yetişdirmirsə, deməli, bu məşğuliyyət əhəmiyyətsiz bir şeydir. Biz həmişə xatırlamalıyıq ki, tarix fəlsəfi dünyagörüşü deməkdir və bizi həm şəxsi, həm də ictimai həyatda necə aparmağı öyrədir. Amma humanistlər üçün ənənəvi olan bu müddəada biz bir qeyd ilə qarşılaşırıq ki, ondan tarixi fikrin tarixçisi yan keçə bilmir.

"Tarix, - Bolinqbroka görə "xalqın əyalət məhdudluğunun aradan qaldırılmasına kömək edir, daha əlamətdar hadisə odur ki, başqa xalqların həyatı və əxlaqı ilə tanış edərək, insanların şüurundan etnik və dini mövhumatı və nəticədə isə özünün (xalqın) irqi və milli müstəsnalığı haqqında rəyi aradan qaldırır!" ("Məktublar" II məktub, səh.15-16) Bu zaman tarix vətənpərvərlik və öz ölkəmizə bağlılıq hissi oyadır, onun özünəməxsus ölçülərini açır. Nəhayət, tarix Bolinqbrokun fikrincə bir xüsusi problemi həll edir: keçmişin xadimlərinə - tarixi şəxsiyyətlərə, onların xidmətlərinə görə qiymət verir və tarixi ədaləti bərpa edir. Başqa sözlə, Bolinqbrok XVI əsrin humanistlərindən sonra tarixşünaslığın etik təbiəti məsələlərinə inanırdı. Amma yaxından nəzərdən keçirdikdə tarixçinin illüziyaları tamamilə yox olur; birincisi, "nəsihətverən" tarix hər şeydən əvvəl tarixi əxlaq meyarlarına yox, müasir, tarixçilərin özlərinin razılaşdıqları meyarlara əsaslanır. İkincisi, tarixin "tribunala" çevrilməsi onunla müşayiət olunur ki, "məhkəməyə" əslində keçmiş yox, keçmişin pərdəsi altında hazırkı dövr cəlb olunur, artıq tarixə çevrilmiş hökmdarları yox, tarixi adlar altında çıxış edən canlı hökmdarları mühakimə edirlər. Belə olan halda sual olunur? Əgər tarixçinin məqsədi indiki dövrün müdafiəsi və bəraət alması və ya ittiham olunması və inkar olunmasıdırsa, onda Bolinqbrok tarixdə həqiqət problemini necə həll edir? Bu prinsipial əhəmiyyətli suala müəyyən dərəcədə yuxarıda cavab verilmişdir – bu nümunələrlə öyrədən tarixin fəlsəfə kimi müəyyən olunmasıdır. Bu təyinetmədə maarifçiliyin tarixi idrak nəzəriyyəsinin mahiyyəti ifadə olunmuşdur. Əslində əgər tarix fəlsəfə mənşəlidirsə onda bir tərəfdən tarixi faktın düzgünlüyünü dəqiq fərqləndirmək, digər tərəfdən isə tarixi həqiqəti (fəlsəfi mənada) fərqləndirmək lazımdır. (V. Məktublar, səh.54-55)

Ayrı-ayrı faktların həqiqiliyi hələ bütöv tarixin (və yaxud fəlsəfənin) həqiqiliyinə zəmanət vermir, eyni zamanda fəlsəfi mənada tarixin həqiqiliyi aydın şəkildə onun faktiki əsasından asılıdır. Bolinqbrokun müasiri olan tarixşünaslığın qeyd olunan fikirlərinin heç biri onu qətiyyən razı salmırdı. Birincisi, onların qarşılıqlı əlaqəsi nəzəri şəkildə axıra qədər aydınlaşmamış qalmışdı, ikincisi, onların birlikdə həyata keçirilməsi məqsədi heç bir əsərdə demək olar ki, tədqiq olunmamış, izlənməmişdir. Bolinqbrok özünün ümumdünya tarixinin antik bölmələrinin mənbəşünaslıq bazasının tənqidində və tarixçi-erüdüstlərin tədqiqat prosedurasında XIX əsr tarixşünas-

lığının bir çox tənqidi metodlarını hamıdan əvvəl sezmişdir. Əgər iş çoxlu faktların doğruluğundadırsa, onda bəs tarixi mühakimələrin həqiqiliyi haqqında məsələ necə həll olunur? Yuxarıda qeyd edildiyi kimi özünün çox mühüm vəzifələrini rasionalist tarixşünaslıq hər bir ayrıca faktın həqiqiliyini müəyyən etməkdə yox, böyük tarixi dövrlər və geniş coğrafi areallar çərçivəsində nəzərdən keçirilən hadisələr selindən əbədi, ümumbəşəri əhəmiyyətli mühüm fəlsəfi ibrət dərsləri çıxarmaqda görürdü. Əgər biz bu məqsədi özözlüyündə obektiv anlamda "hadisənin mənası"nı açmaq kimi şərh etsək, onda düzələsi mümkün olmayan səhvə yol vermiş olarıq. Qətiyyən belə deyildir. Tarixi proses maarifçiliyin mütəfəkkirlərinə müstəsna hal kimi yox, başlıca olaraq özünün subyektiv tərəfilə üzünü çevirmişdir.

Tarixin "insan planı" – müxtəlif situasiyalarda özünü göstərən xarakterlər, bəşəri əməllər, onların motivləri və nəticələri – bax, hər şeydən əvvəl Bolinqbrokun müasiri olan tarixşünaslığ öz qarşısında bunları görürdü.

Beləliklə, xarakterin həqiqiliyi, onu təcəssüm etdirən şəxsiyyətdə yox, tarixi situasiyanın həqiqiliyi yox, insan situasiyasının canlılığı, hərəkətlərin həqiqiliyi yox, bunlardan tarixdə fəlsəfi həqiqət haqqında geniş yayılmış təsəvvürlər belə formalaşır.

İnsan təbiəti özünün təməlində dəyişməzdir, onun ancaq meydana gəldiyi situasiyalar dəyişir. Bu aydın məsələdir ki, yalnış fikirdir. Ancaq maarifçiliyin antitarixsizminin meydana gəlməsində daha uzağa gedən, onun rasional əxlaq meyarlarının əbədi və dəyişməz olması ilə bağlı baxışları idi.

Beləliklə, aydın idi ki, tarixi- "fəlsəfi" mənada yazmaq oxucuya imkan verirdi ki, ondan əhəmiyyətli, mühüm ibrət dərsləri çıxartsın. Bunu iki şərt daxilində əldə etmək olardı; birincisi, nağıletməni artıq detallar ilə doldurmamaq (lazım olmayan təfsilatla), ikincisi, tarixin müqqəddəratını həll edənlərin məqsəd və əməllərini qiymətləndirərək hansısa etalona, xeyir və şər elatonuna uyğun olaraq əldə etmək olar. Lakin bu o demək deyil ki, həqiqət problemi o qədər də tarixi material ilə yox, dəyərlərin normativ sistemi ilə əlaqədə nəzərdən keçirilməlidir.

Bolinqbrok belə baxışlara ümumiyyətlə və bütövlükdə şərik çıxaraq, bu məsələdə də ifratçılıqdan qaçır və həmişə olduğu kimi "orta qızıl" mövqeyində qalmağa üstünlük verir. Bolinqbrok tarixin sosial və etnik gərəkliyi ölçüsünü onun həqiqiliyi ölçüsü ilə bağlayır.

Bolinqbrok yazır ki, "tarix məkanı aralayaraq bizim müşahidələrimizin vaxtını uzadır. İnsan ömrünün davam etdiyi müddətdə, bizim şahidi olduğumuz hadisələr qarşımızda çox vaxt unikal, gözlənilməz, yeganə və ayrıca hadisələr kimi durur, onlar tez-tez belə şəkildə meydana gəlirlər və buna görə "hadisə" adlandırılırlar və təsadüfün nəticəsi hesab olunurlar.

Bolinqbrokun baxışında tarix bir-birinin ardınca gələn, amma dövrlərin bir-birilə varislik əlaqəsi ilə bağlı olmayan inkişaf həlqələrinə – başlanğıc, inkişaf və nəticəyə bölünür. Bolinqbrok bu mərhələləri ayrı-ayrı hökmdarlara, siyasi sistemlərə münasibətdə yox, həm də bir-birini əvəz edən xalqlar, imperiyalar və müxtəlif dövlət sistemlərinə münasibətdə müşahidə etməyin lazım olduğunu qeyd edirdi. Belə ardıcıl dövrlərin hər birinin baş-

langıcı fundamental səbəblərlə şərtlənmişdir və uzun zaman kəsiyi tələb edən, hər halda o qədər uzun zaman ki, heç bir insan şəxsən hadisələrin bütün ardıcıllığını müşahidə etmək halında deyildir. Başlanğıc səbəblərin bütün nəticələri meydana gələndən sonra onun tarixdə fəaliyyəti kəsilir, yeni dövr başlayır və öz növbəsində o da fundamental səbəb ilə açılmağa başlayır. Nümunə kimi Bolinqbrok Yeni tarix dövrünü "elmlərin dirçəlişi" momentindən başlayır, hələ müxtəlif münasibətlərdə bu dövr onun özünün "Məktubları"nın yarandığı momentə qədər başa çatmamışdır, buna baxmayaraq, Bolinqbrok yeni dövrü açan səbəblərin nədən ibarət olduğunu göstərməmişdir (VI məktub, səh.21-22). Bolinqbrok tarixin bölgüsü problemini özünəməxsus şəkildə təqdim edir və özündən sonra gələn tarixin bölgüsü problemi ilə məşğul olan filosofların (Herder, Hegel, Marks və s.) bölgülərindən xeyli dərəcədə fərqlənir.

Tarixin obyektiv tərəfi haqqında söhbət gedən vaxtlarda və yaxud obyektiv hadisələr zəncirinin yerləşməsindən bəhs edərkən Bolinqbrokun "general rules" sözünün tərcümə edilməsinin əsası vardır, müasir anlayış kimi "ümumi qanunauyğunluqlar" termini şəklində tərcümə olunur. Belə qanunauyğunluqların aşkara çıxarılması Bolinqbroka görə tarixə fəlsəfi yanaşmanın mahiyyətini təşkil edir və tarixin materialında fəlsəfə bizə həmin ibrət dərsini təklif edir.

Ümumitarixi, tarixdənkənar qanunauyğunluqlar deyərkən nə nəzərdə tutulur? Yaxından nəzərdən keçirərkən ənənəvi humanist təqdim olunma qarşıya çıxır və hadisələrin həlledici aspektləri əxlaqla, psixologiya ilə insan müdrikliyi ilə bağlanır. Bu nəticədə Bolinqbrokun bütün fəlsəfi idealizmi öz əksini tapmışdır. Bu nöqteyi-nəzərdən tarixi epoxalar onunla fərqlənirlər ki, kimlərsə bu dərslərdən şüurlu və məqsədyönlü şəkildə istifadə edirlər, başqaları isə dini əqidə və fanatizmin təsiri altında onlara etinasız yanaşırlar.

Bolinqbrok "Məktublar" əsərində onun tərəfindən təklif olunmuş tarixin metodunun mahiyyətini formulə edir. Məlumdur ki, Aristoteldən gələn ənənələr tarixə qarşı təkcə fəlsəfəni yox, həm də poeziya və dramı qoymuşdur. Bolinqbrok yazırdı ki, biz xüsusi bilikdən ümumi biliyə doğru irəliləməliyik, bu zaman ayrı-ayrı hadisələrin dərslərini yox, son dərəcə tarixin bütöv, başa çatmış dövrlərini – onların əsasında duran səbəb-nəticə əlaqələrini öyrənməliyik. Digər tərəfdən Aristotelin ardıcıllarına zidd olaraq Bolinqbrok hesab edirdi ki, tarix o zaman ümuməhəmiyyətli həqiqətə çatır ki, tarix fəlsəfi aspektdə və ya fəlsəfi ruhda öyrənilir. Bu zaman tarix fəlsəfənin metodlarını təqlid, təkrar etməməlidir və Bolinqbrok qeyd edir ki, fəlsəfə idrakdan başlayıb, təxəyyül ilə başa çatır. Tarixçi tarixi öyrənməyi isə mənbələrdən başlamalı və tarixin idraki mənasının nədən ibarət olmasından ibrət dərsi çıxarmalıdır (VII məktub, səh.86-87)

Nəhayət, Bolinqbrok təkcə bəşəri situasiyaların dəyişməsi ideyasına yaxınlaşması ilə yox, həm də tarixi epoxaların bir-birini əvəz etməsinə, bu epoxaların fərdi təkrar olunmazlığı ideyasına yaxınlaşması nəticəsində tarixin dərslərindən istifadə etməyin mümkünlüyü haqqında yeni motiv irəli sürür. İstifadə etmək kor-koranə şəkildə prototivi təqlid etmək deyildir.

“Biz əgər mümkünsə ruhu tutmalıyıq, amma öz fəaliyyətimizdə böyük və xeyirxah adamların (tarix bizə onların obrazlarını təsvir edir) konkret davranışlarını qul kimi təkrar etməkdən çəkinməliyik. Təqlid edərkən biz elə hərəkət etməliyik ki, biz dildən başqa dilə yaxşı tərcümə zaman tarixin “dərs”inin mənasını bizim epoxanın idiomlarında ifadə edə bilək.

Bolinqbrok oxucusunu hər şeydən əvvəl tarixi öyrənməyə sövq edir. Bir halda o “Yeni tarixi” öyrənməyi məsləhət görür, çünki, tarixin qədim dövrləri mənbələrin zəifliyi və keyfiyyətsizliyi üzündən şübhəlidir. Digər halda isə o qədim tarixin praktiki əhəmiyyətini o əsasla inkar edir ki, orada bütün proseslər başa çıtmışdır və daha maraq doğurmurlar. Elə tarix sosial idrakın universal əsası hesab olunur ki, o sağlam düşüncə üçün zəmin yaradır.

L. Bolinqbrokun tarix fəlsəfəsinin – onun siyasi baxışları və sinfi mövqeyindən ayrılmaz olduğunu nəzərdən qaçırmaq olmaz . Biz bağışlanmaz səhvə yol verərdik, əgər onun mahiyyətini əslində belə əqidəyə şamil etsək ki, tarixin öyrənilməsi cəmiyyəti təkmilləşdirməyi arzu edənlərin hamısı üçün acıqdır. Belə münasibət ingilis torilərinin ideoloqu üçün ədalətsizlik olardı.

Məqalənin sonunda belə bir paradoksa diqqət yetirməmək düzgün olmazdı; Tori Bolinqbrok mahiyyət etibarı ilə Avropa və ingilis tarixinin mühüm dövrlərinin interpretasiyasının əsasını yaradan, onun banisi hesab olunur.

Beləliklə, biz tarix fəlsəfəsinin öyrənilməsi və tədqiq edilməsi yolunda daha bir səhifəni vərəqlədik. Şübhəsiz Lord Bolinqbrokun tarix fəlsəfəi ilə bağlı, tarixin öyrənilməsi metodu ilə bağlı fikirləri həm fəlsəfi, həm də tarix elmi baxımından böyük maraq doğurur və ətraflı surətdə tədqiq olunmağa layiqdir.

## ƏDƏBİYYAT


1.Л.Болингброк. Письма об изучении и пользе истории. “Наука”. М., 1978.

2. Г.В.Гегель. Философия истории. Л., 1935.

3. И.Г.Гердер. Идеи к философии истории человечества. М., “Наука”, 1977.

4. К.Ясперс. Смысль и назначение истории. М., 1991.


## Л.БОЛИНГБРОК И ЕГО «ФИЛОСОФИЯ ИСТОРИИ»


**Б.Х.АЛИЗАДЕ**


## АННОТАЦИЯ


Статья посвящена одной из важнейших и актуальнейших проблем философского исследования – проблеме философского анализа исторического процесса.

Работа Л.Болингброка “Об изучении и пользе истории” посвящена анализу исторического процесса, исторического метода. Статья Ализаде Б.Х. расскрывает историческую истину и его сущность в воззрениях Л.Болингброк. Опираясь на воззрения Л.Болингброка, в статье анализируются отдельные этапы исторического процесса – начало, развитие и заключение.